Azərbaycan poeziyası

# VAQİF SƏMƏDOĞLU

## SEÇMƏ ŞEİRLƏR

qanun nəşriyyatı

"Qanun" nəşriyyatının yeni layihəsi "Azərbaycan poeziyası, seçmə şeirlər" adlanır. Seriyadan sizə təqdim etdiyimiz bu kitaba sevilən və unudulmaz Vaqif Səmədoğlunun seçilmiş şeirləri daxil edilib. Kitabın səhifələri arasında şairin müxtəlif illərdə qələmə aldığı şeirlərin fərqli poetik ovqatına köklənəcək, ruhunuzu dincəldən şeir ab-havasına qərq olacaqsınız.

Kitab şairin ömür-gün yoldaşı Nüşabə xanım Vəkilovanın təqdim etdiyi  şeirlər əsasında tərtib edilib.

**Vaqif Səmədoğlu AZƏRBAYCAN POEZİYASI SEÇMƏ ŞEİRLƏR**
Bakı, Qanun nəşriyyatı, 2023, 232 səh.

Janr: fiction/şeirlər
Ölçü: 120x185 mm
Cild: qalın
Çapa imzalandı: 15.12. 2022

Naşir: Şahbaz Xuduoğlu
Tərtib edən və redaktor: Əyyub Qiyas (Qi Or El)
Korrektor: Əyyar Tahir
Texniki redaktor
və mətn dizaynı: Asifə Əfəndi
Qapaq dizaynı: Rafael Qasım

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Q
anunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-480-2

© Qanun nəşriyyatı, 2023

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar
və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar
haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# Mündəricat

"Mənə yaşamaq yox, şeir yazmaq gərəkdir" ................. 12
Mənim ünvanım ............................................................ 19
Bakıya duman gəlib ........................................................ 20
Şeir yazmaq tutub məni .................................................... 21
Əlin sınaydı sanitar ...................................................... 22
Mənə sevib ayrılmağa ...................................................... 23
Salam, ata, salam ......................................................... 24
Qaraçıların yuxusuna ...................................................... 25
Gecə itir qaranlıqda ...................................................... 26
Kağızın üstünə düşüb ...................................................... 27
Bütün yollar çəkilibmiş ................................................... 28
Sevirəm deyən dodaqlara .................................................... 29
İndi nədən ................................................................ 30
Saat neçədir, qumru ....................................................... 31
Toplar min-min atılsa da ................................................... 32
Sol əlimlə sağ əlimin ..................................................... 33
Nifrətin yatan yerini ..................................................... 34
Sabah kiminsə gözündə nifrət ............................................... 35
Qumlu sahilin üstüylə ...................................................... 36
Bir axşam taksidən düşüb payıza ............................................ 37
Sinəm bəd harayla dolub .................................................... 38
İndi gileydən, güzardan .................................................... 39
Bacım bayquş, gözlərini ver mənə ........................................... 40
Ağlıma bir fikir gəlir ..................................................... 41
Telefon nömrələri .......................................................... 43
Ürəyim yol çəkib, bir gözə dönüb ............................................ 45
Gözlərində boş yer varmı? .................................................. 46

Saxlayın Yer Kürəsini ....... 47
Nəyin istisindən yananlar ....... 48
Vaxtsız ölsəm ....... 50
Mən tez gəldim ....... 51
Sabahdan axşamacan gözüm yolda ....... 52
Məzarıma nə baş daşı qoyun ....... 53
Romada nəhəng kilsələr ....... 54
Əsrimizin on beş başlı əjdahası ....... 55
Gecə yorğunluq kamerası ilə ....... 56
Son gecədir bu gün yenə ....... 57
İldırım çaxdı ....... 58
Ölümümə bir az qalmış ....... 59
Sabahdan yağış ....... 60
Bu gün buludlar ....... 61
Qara, qabar, qaranlıq ....... 62
Eşidirsənmi? ....... 63
Batan ....... 64
İri, mavi mamont idim ....... 65
Dünən adını yazdım ....... 66
Markiz adalarında ....... 67
Doğuldum 1939-da ....... 68
Nəhəng bürünc xaç kimi ....... 69
Əyrin-üyrün ....... 70
Dünən yığışıb getsən də ....... 71
Başqa bir qız da ....... 72
Dəniz əl- üzünü yuyur ....... 73
Ömrümün ....... 74
Qağayıları saymasaq ....... 75
İnsanların ....... 76
Bu gün dənizi siləndə ....... 77

Mən bir gün üfüq olmuşdum....78
Sən mənim....79
Görürəm ot basır, toz-torpaq örtür....80
Kölgəsiz baxtımın boz səhrasında....81
Necə qaçım?....82
Bir gün dəli olacağam....83
Bacarsaydım qurudardım....85
Sevgilim, mən öləndə....86
Əlimi uzatdım....87
Gecə göy üzü ulduzlarla dolu....88
Bir qoca oturub....89
Bir şeir yaz mənim yerimə....90
Yola çıxanda....91
Bu zeytunların....92
"Vətən" sözünü....93
Mən ölən gün....94
Aman Allah, dəli qış yağışları yağanda....95
Yol verin, çəkilin....96
Mənə şeir yazmaq öyrət....97
İlahi....98
Belə ağlamalı dalan....99
Ah çəkməyə bir yer....100
Qulaqlarımda küləyin uğultusu....101
Yollar uzun....102
İldırım çaxdı....103
Ayıbdır, utan....104
Çörəksiz....105
Külək sovurur qarı....106
Bir gün səslənəcək bu telefon....107
Bir ah çıxıb daşa dəydi....108

Ömür yolu açıq yoldur ........................................................ 109
Xoş xəbərlər varsa ............................................................... 110
Ömür sənə yaraşır ................................................................ 111
Şopen... ............................................................................... 112
Ölüm bir gün də ................................................................... 113
Səsi olmasaydı ..................................................................... 114
Meşədə də ............................................................................ 115
Bu dünya yuxu bazarıdır ...................................................... 116
Ayrılıq da, qürbət də xəstəlikdir .......................................... 117
Vətəndən ............................................................................. 118
Heç vaxt bir insan oğlu ......................................................... 119
Bilsəydim üstümlə ................................................................ 120
Bir gözəl qadının ................................................................... 121
Yelkənə külək ....................................................................... 122
Gözüm də get-gedə ............................................................... 123
Mən karam, sən kor .............................................................. 124
Bir bax, gör o nədir ............................................................... 125
Sevil, qadın, yenə sevil .......................................................... 126
Şeir yazdığım zaman ............................................................. 127
Minorda ............................................................................... 128
Mənəmi belə gəldi ................................................................ 129
Yanına gəlib ......................................................................... 130
Bu əllər əvvəl-axır ................................................................ 131
Biz yox ................................................................................. 132
Biri vardı, biri yoxdu ............................................................ 133
Hər görüşün axırı ayrılıqdır .................................................. 134
Yoxsa sənin də ..................................................................... 135
Nə uydururuqsa .................................................................... 136
Dəniz sakitləşib, dalğalar yatıb ............................................. 137
Bir yəhər durmadı həsrət belində .......................................... 138

Bu yorğunluq nəyə bənddir? ........ 139
Bu yol öküz yoludur ........ 140
Gəlmə, gəlişindən yaman qorxuram ........ 141
Əlindən nə gələr sənin ........ 142
Mənə pusqudan baxan ........ 143
Şair kimi yox ........ 144
Keçmişə əlvida demək olmaz ........ 145
Bizdən qorxmayın, yox ........ 146
Sifətin nə vaxtdır yadımdan çıxıb ........ 147
Gəl kilsəyə gedək ........ 148
Səbirsizəm ........ 149
Bir çəpər qırağında ........ 150
Heç olmasa, hər yüz gündən bir ........ 151
Ömrün qabağında durub ........ 152
Ağ qapıya kölgə düşüb ........ 153
Adımı neyləyirsən? ........ 154
Yenə həyata qaytarmaq istəyirəm ........ 155
Görəsən niyə adam bilmək istəyir ........ 156
Biz bir yerdə ........ 157
Aralananda ........ 158
Quşlardan xəbərsiz ........ 159
Darıxanda pis darıxıram ........ 160
Nə deyə bilərsən mənə? ........ 161
Olmayan yerdə ........ 162
Bir gün axşam üstü dəniz səsinə ........ 163
Şam sönəndə ........ 164
Məndən uzaq gəzməyin ........ 165
Darıxma, gözlə ........ 166
Yer üzündə yüz illərlə duran ........ 167
Rica edirəm, yalvarıram ........ 168

Bağ yolunda tənha işıq yanır .................................................. 169
Özünmü yalqızsan .................................................. 170
Bəlkə dualarımı .................................................. 171
Söndü gözün qürbət eldə .................................................. 172
Doğru söz eşidirəm .................................................. 173
Qıvrılıb özünü günə verən .................................................. 174
Ayrılığın .................................................. 175
Doğmalar, yadlar qaranlıqda da var .................................................. 176
Əyil, görən yoxdur, utanma .................................................. 177
Mənə Vətən yolu .................................................. 178
Qürbətə mən neçin gedim .................................................. 179
Əlvan yorğan-döşək, boş qalmış yuvan .................................................. 180
İlahi, burdasansa .................................................. 181
Pis olmazdı yavaş-yavaş .................................................. 182
Günaha batmağım gəlib, ay Allah .................................................. 183
Bu dünya .................................................. 185
Adın nədir ev yiyəsi? .................................................. 186
Sənə yuxu görünən .................................................. 188
Biz sizlərdən uzaqdayıq .................................................. 190
Soruşursan hardayam? .................................................. 191
O dünyadan elə danışırıq ki .................................................. 193
Bu dünya görüş yerimizmiş .................................................. 194
Ay işığının .................................................. 195
Neçə baharla, payızla .................................................. 196
Yatmış bildiyim ilan .................................................. 197
Kimsəsiz adada görünən bayraq .................................................. 198
Ölülər bizə yas saxlayıb .................................................. 199
Donmuş könül buz bağlayıb .................................................. 200
Yorulma, qurban olum .................................................. 201
Bu yağış .................................................. 202

Günahlarımı qana-qana ........................................................203
O gün dəniz vardı ...............................................................204
Dəniz dərindən dərin ..........................................................205
Nə yaxşı ki, oyaq idim ........................................................206
Bir qadın qaməti var ...........................................................207
Dünyamızın bir sifəti ..........................................................208
İncimişəm bu torpaqdan......................................................209
Barama qurdunun sonu .......................................................210
Üfüqdən gözəl.....................................................................211
Polyak qızı, mən sənə ..........................................................212
Səssiz-səmirsiz olmaq ..........................................................213
Bir az ...................................................................................214
Səksən səkkiz yaşında ..........................................................215
Biri vardı, biri yoxdu ...........................................................216
"Qurani-Kərim" kitabını .......................................................217
Beləliyimə istəyirsənsə .........................................................218
Nədən solmusan? ................................................................219
Allah, nə var, nə yox? ..........................................................220
Mən sənin yuxunam .............................................................221
Atalar ..................................................................................222
Əllərini, gözlərini.................................................................223
Gəlişinə lap az qalıb ............................................................225
Birlikdən və tənhalıqdan ......................................................226
Bu ayrılıq dənizilə ...............................................................227
İndi kədər ya cin .................................................................228
İlahi ....................................................................................229
Bu şeirlər yuxuludur ............................................................230

## “MƏNƏ YAŞAMAQ YOX, ŞEİR YAZMAQ GƏRƏKDİR”

Vaqif Səmədoğlu – Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri – ustad şair. O, dünyasını dəyişsə də, həyatının son anına qədər Ölüm haqqında düşünmürdü.

Vaqif böyük Azərbaycan şairi Səməd Vurğunun oğludur. Səməd Vurğun isə Azərbaycan deməkdir. Və Vaqif həm də Azərbaycanın oğludur.

Mən Yusifli Vaqif isə həm Səməd Vurğunun, həm də Vaqif Səmədoğlunun oxucularından biriyəm.

Səməd Vurğunun “Vaqif” pyesi məşhurlaşandan sonra atam bu adı mənə götürüb. Deməli, adaşıq. İllər gəlib keçdi, mən kənddən Bakıya gəldim, günlərin birində Vaqif Səmədoğlu ilə tanış oldum. Onu bir şair kimi də, insan kimi də çox sevdim. Əlbəttə, bu sevginin əsasında onun poeziyası durur. Oxuduğum çox-çox şairlər mənə şairdən başqa ictimai həyat adamı, siyasətçi, rəssam, musiqiçi təsiri bağışlayırlar. Vaqifə isə şairlikdən başqa bir ad araşdıra bilmədim... Hərçənd Vaqif Səmədoğlu təhsilinə görə musiqiçidir, cazı çox sevir və təbliğ edirdi.

Vaqif Səmədoğlu ilə onun şeirləri arasında heç bir təzad görmürəm. Əslində, əsl şair şeirində yaşamalıdır. İllər keçəndən sonra o şairin obrazı yaddaşlardan silinə bilər,

o şair haqqında təsəvvürlər tamam yox ola bilər. Amma şeir yaddaşdır və nəsildən-nəslə ötürülür, şairi yaşadan da elə budur... Bu gün çox şairin şeiri özünə bənzəmir. Şeiri özünə, özü şeirinə bənzəməyən çox-çox şairlər görürəm bu gün... Vaqif Səmədoğlu şeirlərinin birində yazır:

Mənə sevib ayrılmağa
bir qadın verin.
Ürəyimdə bir ayrılıq qəribsəyib
və bu ayrılıqdan bir şeir.
Mənə baş götürüb getməyə
bir yol göstərin.
Ürəyimdən bir yol keçir
və bu yoldan bir şeir.
Mənə yaşamağa bir qürbət verin.
Ürəyimdə bir vətən qəribsəyib
və bu vətəndən bir şeir.

Təkrirlər üzərində qurulan bu şeirin hər bəndində bir istək, bir duyğu səslənir. Ayrılıq, Yol, Vətən, bir də bu üç duyğunu birləşdirən şeir. Yeri gəlmişkən deyim ki, Vaqifin şeirlərində məxsusi poetik obrazlar var: Ayrılıq, Yol, Vətən, Qadın, Ömür, Ölüm... bunlardan öncə Allah və Azadlıq. İstəyirəm söhbətimə sonunculardan başlayım.

Son otuz ildə doğrudan da şeirimizdə Allaha müraciətlər, xitablar çoxalıb. Bu, yaxşıdımı, pisdimi, – deyə bilmərəm, çünki şairin də sığındığı Allahdır, sözün də... Ancaq istənilən müqəddəs bir sözü şeirdə həddindən artıq istismar etdikdə o sözü adiləşdirib gözdən salmaq da olar. Yaxud o müqəddəs söz az və ya çox işlənməyindən asılı olmayaraq, hər dəfə şeirdə yeni məna kəsb edə bilər.

“Vaqif Səmədoğlunun şeirlərində “Allaha müraciətlər” cavabsız qalmır. Ulu Tanrının cavabı yaşadığımız bu dünyadır, hər birimizin və hamımızın birlikdə ömrüdür, həyatıdır, taleyidir” (Anar).

Kimin var, Ulu Tanrı,
Məndən savayı bu dünyada?
Kimim var Səndən başqa
bu aləmdə mənim?
Sən tək, mən tək,
Ulu Tanrı...

Vaqif Səmədoğlunun bu mövzulu şeirləri, mənim fikrimcə, poeziyamızda ilk dəfə olaraq Allah üzərindəki mistik örtüyü götürdü. İnsanla Allah doğmalaşdı və bu doğmalıq insanın son pənahı olan Allaha doğru yolu da qısaltdı. Vaqif Səmədoğlunun şair kimi susan vaxtları da olub. Onun şair dostları tribunalardan, meydanlardan, şeir məclislərindən qışqıranda o, daş səbri ilə susurdu. Daha doğrusu, yazırdı, amma susurdu... Sən demə, Azadlıq və İstiqlal haqqında hamıdan artıq düşünürmüş. Bizim içimizdə yaşayan kədəri hamıdan çox çəkirmiş:

Mənə Vətən yolu
dar gəlir yenə,
üzümə bahar yox,
qar gəlir yenə.

Mənə elə gəlir, bu şeiri o zaman Vaqif heç cür işıq üzünə çıxara bilməzdi:

Sən mənim
doğma anamsan, Azadlıq,
Mən sənin
Yad qapısında böyümüş balan.

Heç bir QLAVLİT Vaqifin bu misralarını da yaxına buraxmazdı:

Belə gündə şəhər
üstüaçıq qəbristanlığa bənzər.
…Məğlub Vətən bayrağı tək
Ayaq altda qalıb bahar.

Deyirlər ki, şeir zamanına görə yazılır və öz vaxtında meydana çıxmalıdır. Guya zaman ötəndən sonra o şeirlər millət üçün heç bir əhəmiyyət kəsb etmir. Təbii ki, bu fikrin böyük poeziyaya dəxli yoxdur. Əsrin o başında yazıb-yaradan Sabirin şeirləri öz zamanında yazılıb, öz zamanında deyilib, amma elə bil bu günün şeiridir. Öz zamanında yazılan və deyilən xeyli şeir də var ki, onların heç biri bu gün yaşamır. Vaqif Səmədoğlu bir şeirində yazır:

Şair kimi yox,
şeir kimi ölmək istəyirəm.

Vaqif Səmədoğlunun şeiri fərdi, intim olduğu qədər də ictimaidir. Ümumiyyətlə, kim deyirsə ki, şeir ancaq ruhun ifadəsidir və onun ətraf mühitə, cəmiyyətə heç bir dəxli yoxdur, onunla razılaşmaq olmaz. Yaxud, kimsə deyirsə ki, şeir cəmiyyət üçün yazılır, o fikir də yanlışdır. Qışqıran

şairlərin “ictimai” şeirləri də, öz daxili dünyasına qapılan şairlərin “fərdi” şeirləri də dünyadan təcrid oluna bilməz. Pıçıltıda da, həzinlikdə də, səssiz fəryadda da böyük dünyanı görmək olar. Böyük dünya dediyimiz isə mənəm, sənsən, cəmiyyətdi, təbiətdi. Və Vaqif Səmədoğlu o böyük – son dərəcə ziddiyyətli, ağlamalı, gülməli, komik, faciəli dünyanı bizim içimizdən keçirə bilir. Vaqif Səmədoğlunun şeirlərindəki ağrı-acını, kədəri-qəmi, Allah, Dünya, Ömür və Ölüm haqqında düşüncələrini bir yerə toplayanda belə qərara gəlirsən ki, o, bu dünyanın – faniliyin içində əzab çəkirmiş. Onun şeirlərinin hər biri əzabın səslərdə, sözlərdə ifadə olunan nəqşidir.

Vaqifin “dərdli” şeirlərində patoloji ağrı yoxdur, cismani əzabların sıxıntısından doğan qüssəyə rast gəlməzsən, bu, mənəvi ağrıların yaratdığı hisslərin, duyğuların ifadəsidir.

Ayrılıq da, qürbət də xəstəlikdir,
Yoluxucu azardır ikisi də.
Doğulub yaşadığın vətəndə
mühacir üşütməsiylə titrəyirsən
illər uzunu, bir tale boyu.
Sonra qərib məzarı qazılır sənə
ana torpaqda...

Vaqif Səmədoğlu şeiri öz poetik sanbalına, yükünə görə çağdaş poeziyamızda ayrıca bir qoldur desəm, səhv etmərəm. Burada Söz adilikdən və hər cür təmtəraqdan, ritorikadan xilas olur. Söz fikirlə hissin poetik daşıyıcısına çevrilir. Biz Vaqif şeirində bəlkə də çoxları üçün qəribə təsir bağışlayan ifadələr, deyimlərlə qarşılaşırıq. Fikrimizcə,

Vaqif Səmədoğlu poeziyası Azərbaycan və dünya şeirinin ən müasir meyillərinin bir nöqtədə birləşdiyi, vəhdət təşkil etdiyi poeziyadır. Vaqif Səmədoğlu ilə beş əsrlik Füzuli arasında qırılmayan poetik tellər gözə göründüyü kimi, atası Səməd Vurğun arasında da oxşarlıq, yaxınlıq tapmaq mümkündür.

Həmçinin Vaqif Səmədoğlu şeirləri ilə müasir postmodernist poeziya arasında da belə bir uyuşmanı açıqlamaq müşkül deyil. Dünyada bütün gözəl şairlərin yolu bu vəhdətdən keçir. Amma ilk növbədə V.Səmədoğlu yalnız özünə bənzəyən şairdir. Onun "Günün baxtı" (1972) ilk şeirlər kitabı ilə son şeirləri arasında təbii, poeziya üçün qanunauyğun bir inkişaf prosesini izləmək çətin deyil, amma o ilk şeirlərlə son şeirlər arasında elə bir bağlılıq var ki, bunu başqa bir şairdə tapmaq çətindir.

Vaqif Səmədoğlu şeirlərində tez-tez atasını – XX əsrin böyük söz ustadı Səməd Vurğunu xatırlayır. Bu, sadəcə oğul məhəbbəti deyil, həm də böyük poeziya qarşısında ehtiram əlamətidir. Vaxtilə Vaqifin şeirlərindən söz açanda bəziləri onu qınayırdı ki, niyə atası kimi yazmır. İndi deyə bilərik ki, məhz Səməd Vurğun kimi yazmadığı üçün Vaqif Səmədoğlu öz poetik istedadını tam mənada sübut edə bildi. Poeziyada Səməd Vurğun yolunu tutanlar onsuz da çox idi və bu yolu tutanların çoxu, açığını desək, orijinal şair ola bilmədi.

Vaqif Səmədoğlu şeiri məzmunca da, formaca da yenidir, lakin öncə dediyim kimi, Azərbaycan poeziyasının qaynaqlarından üzülməyir, öz minor kökü, həzin və elegik ruhu, yeri gələndə ironik tərzi ilə Füzuli, Sabir, Hadi şeirinə, xalq ədəbiyyatına ilişiklidir.

Yer altından min ah kimi
Çıxdı çiçəklər səhər.

***

Allah, məni yarı öldür,
Yarı saxla ağlamağa.

***

Mənə bir az yağış,
bir az konyak
bir az da göz yaşı lazımdır.
Bir də elə bu otaq,
bu işıq, bu kağız, qələm
Bu gün lazımdır yaman.
Və bir də qapısının açarı
öz cibimdə olan bir məzar
lazımdır mənə.
Bu qapının dalında,
bu otaqda oturub
rahat şeir yazmaqdan ötrü.

Bu da Vaqifin şeiridir. Bu şeir onun taleyidir. Vaqifin taleyi isə sirlərlə doludur.

Mənə yaşamaq yox,
şeir yazmaq gərəkdir.

***Vaqif YUSİFLİ,***
***filologiya elmləri doktoru.***

***

Mənim ünvanım –
Nəhayətsizlik.
    Zaman.
        Məkan.
Dünən,
    bu gün
        və sabah.
Görünən, görünməyən.
Eşidilən, eşidilməyən
   Qalaktika.
      Günəş sistemi.
Yer kürəsi.
Torpaq.
Bir az Avropa.
Bir az Asiya.
Böyük ölkə.
Doğma yurdum
Azərbaycan.
Bakı.
Sakit bir küçə.
Ev dörd, mənzil otuz yeddi.
Otaq.
Üçbucaq masa.
Kağız və qələm.
Şeirlər...

***

Bakıya duman gəlib,
heç kəsə demə.
Deyəsən yaman gəlib,
heç kəsə demə.

Çıraq yanıb bu axşam,
yanıb, sönüb bu axşam,
heç kəsə demə.

Bu dumana qapımdan
çıxan kimi azmışam,
yenə şeir yazmışam,
heç kəsə demə.

Daş evlər arasında
neyləyər duman mənə?
Gülüm, diriyəm yenə
heç kəsə demə...

***

Şeir yazmaq tutub məni.
Ağlımı itirmişəm
şeir yazmaq arzusundan.
Dilimə gələn sözlərin quluyam,
ürəyimdə qalanların dəlisi.
Şeirə söykənib
baxmaq istəyirəm
dünya dediyimiz şeyə,
dünyadan
şeir arxasında gizləndiyim kimi...
Hər itkim bir şeirə dönüb,
hər sözümlə
ömrümdə nəsə sönüb.
Nə irəli getmək istəyirəm, nə geri,
nə sola, nə sağa.
Dünya bəhanəymiş şeir yazmağa...

***

Əlin sınaydı sanitar,
O qızı döydüyün yerdə,
Yumruğunla qız üzündə
Anamı söydüyün yerdə.

O qız sənin gözlərinlə
O ağaca baxmamışdı,
O qız o gün o ağaca
Elə-belə çıxmamışdı.

O qız çılpaq çinarın da
Başında hava görmüşdü,
Allahın atıb getdiyi,
Boş qalmış yuva görmüşdü.

Sən o qızı döyən zaman,
Açılmamış güllər soldu,
Dəlixana həyətində
Bir ağac da dəli oldu.

Xışıldadı yer üzünün,
Ən əlacsız yarpaqları,
Dəlixana divarını
Öpdü çinar budaqları...

***

Mənə sevib ayrılmağa
bir qadın verin.
Ürəyimdə bir ayrılıq qəribsəyib,
və bu ayrılıqdan bir şeir...

Mənə baş götürüb getməyə
bir yol göstərin.
Ürəyimdən bir yol keçir,
və bu yoldan bir şeir...

Mənə yaşamağa
bir qürbət verin.
Ürəyimdə bir vətən qəribsəyib,
və bu vətəndən bir şeir...

***

Salam, ata, salam.
Bilirəm,
    arxamdasan.
Məzarından
cəmi əlli-altmış
addım bu yanda dayanıb,
trolleybus gözləyirəm.
Trolleybusa minib,
sənin yanına
        gələnə qədər
yaşamağa gedəcəyəm.
Ömür bu imiş, ata?
Gəldi...
Salam, trolleybus,
əlvida, ata...

***

Qaraçıların yuxusuna
bir zaman ilxılar girərdi,
xam atlar şahə qalxardı
qaraçı yuxularında.

Qaraçıların
yovşan ətrinə bürünmüş düzləri vardı,
bir də özgə atını
uzaqdan görə bilən qara gözləri.

Qaraçılar bilməzdilər nədir ayrılıq,
ayrılıqda doğulub,
    ayrılıqda
            ölərdilər çünki.
Yox idi vətən sözü
qaraçı dillərində.
Yer üzündə doğulub,
yer üzündə ölərdilər çünki.
Qaraçılar bilməzdilər
döşəmə nədir, tavan nədir.
Çünki otlarla örtülmüş çöllər,
ulduzlarla dolmuş göylər vardı...

***

Gecə itir qaranlıqda,
Gündüz dumana bürünür.
Ömür beşgünlüksə əgər
Niyə belə ləng sürünür?

Göy üzü lap quramadır,
Buludları yamaq-yamaq.
Bu daş hasara söykənib,
Çətindir, vallah, yaşamaq!

Nə yaman ağırmış hər gün
Bir ömrü yüz paya bölmək.
Dəniz sahilində durub,
Dəniz həsrətiylə ölmək...

***

Kağızın üstünə düşüb
İki əlimin kölgəsi.
Yenə də lap zilə qalxıb
Təkliyimin yalquzaq səsi...

Vaxtdan yaxa qurtarmışam,
Bilmirəm saat neçədir.
Ay yarımçıq, ulduzlar yox,
Yaman ölməli gecədir...

Nə varım var, nə barxanam
Ömür yükü bağlamağa.
Allah, məni yarı öldür,
Yarı saxla ağlamağa...